*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*12 (3) 2025*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:12.02.2025*
*Kabul tarihi |Accepted:25.05.2025*
*Yayın tarihi |Published:25.06.2025*

**Şakir Cəfərov**

***https://orcid.org/0009-0005-9873-0734***
*PhD, Doctor of Philosophy in Philology, Baku State University, Department of Philology, Azerbaijan, sakircaferov@gmail.com*

***Atıf Künyesi | Citation Info***

Cəfərov, Ş. (2025). Mir Cəlal Paşayevin (1908-1978) Ədəbi-Bədii-Publisistik Yaradıcılığının Aktuallıq Problemləri. *Akademik Tarih ve Düşünce Dergisi*, *12* (3), 502-514.

# Mir Cəlal Paşayevin (1908-1978) Ədəbi-Bədii-Publisistik Yaradıcılığının Aktuallıq Problemləri

***Xülasə***

*Azərbaycan ədəbiyyatında Mirzə İbrahimov, Mehdi Hüseyn, Süleyman Rəhimov, Əli Vəliyev, Sabit Rəhman, İlyas Əfəndiyev, Ənvər Məmmədxanlı kimi özünəməxsus cəhətlərilə bir-birindən fərqlənən hekayəçilərimiz vardır. Bu yazıçıların əsərlərində mövzu, ideya yaxınlığı daha çox nəzərə çarpır. Bunun əsas səbəbi isə, müşahidə olunan həyat hadisələrinin təxmini yaxınlığı, bənzərliyidir. Lakin bu həyat hadisələrinə münasibət, onları təsvir etmək, mənalandırmaq priyomları müxtəlif və rəngarəngdir. Bir sıra kəskin fərqlərə baxmayaraq, Mir Cəlal və Sabit Rəhman daha çox satirik və yumoristik, İ. Əfəndiyev, Ə.Məmmədxanlı romantik və lirik, Mirzə İbrahimov və Mehdi Hüseyn daha çox bədii publisist hekayələrin müəllifi kimi tanınmışlar. Bu yazıçıların hər birinin öz dəsti-xətti, orijinal xüsusiyyətləri, Azərbaycan nəsrində öz mövqeyi vardır.*

***Açar sözlər:*** *Mir Cəlal Paşayev, Bədii Təsvir, Azərbaycan Ədəbiyyatı, Ədəbi-Bədii-Publisistik Yaradıcılıq, Orijinal Təsvir və İfadə Üslubu*

# Current Problems of Mir Jalal Pashayev's (1908-1978) Literary, Artistic and Journalistic Creativity

***Abstract***

*In Azerbaijani literature, there are storytellers such as Mirza Ibrahimov, Mehdi Hussein, Suleyman Rahimov, Ali Valiyev, Sabit Rahman, Ilyas Efendiyev and Anwar Mammadkhanli who stand out with their unique features. In the works of these writers, the closeness of the subject and idea is more evident. The*

BY NC Creative Commons Licence

*main reason for this is that the observed life events are close and similar to each other. However, the approach to these life events and the methods of describing and interpreting them are varied and colourful. Despite a number of sharp differences, Mir Celal and Sabit Rahman are known as writers of more satirical and humorous stories, I. Efendiyev, A. Mammadkhanli as writers of romantic and lyrical stories, Mirza Ibrahimov and Mehdi Hussein as writers of more artistic advertising stories. Each of these writers has its own style, unique features and unique position in Azerbaijani prose.*

***Keywords:*** *Mir Calal Pashayev, Artistic Depiction, Azerbaijani Literature, Literary-Artistic-Journalistic Creativity, Original Depiction And Narrative Style*

## Giriş

Biz bu yazıçılardan ancaq birinin – Mir Cəlalın dil və üslub xüsusiyyətləri haqqında fikir söyləmək istərdik. Bir sözlə, real həqiqətdir ki, Mir Cəlal “Sağlam yollarda” adlı oçerklər kitabından başlayaraq, digər əsərlərinə kimi bədii dilin zəruri tələblərinə yüksək səviyyədə əməl etmişdir. Ona görə də yazıçının dili öz aydınlığı, sadəliyi, yığcamlığı, şirinliyi və ürəyəyatan səmimiyyətlə müəllifin canlı xalq danışıq dilindən necə səmərəli istifadə etdiyini, bədii dilin tələblərinə necə sadiq qaldığını aşkar göstərir. 20-ci əsr Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elmi tarixində şöhrət tapmış parlaq şəxsiyyətlərdən biri Mir Cəlaldır. Ömrünün tam yarım əsrini çətin, lakin mənalı və şərəfli bədii, elmi və pedaqoji yaradıcılıq işinə həsr etmişdir.

## 1. Mir Cəlal Paşayev (1908-1978)

İlk hekayə və oçerklərini 1930-cu ildə çap etdirən yazıçı qısa bir zaman kəsiyində özünü istedadlı nasir kimi tanıda bilmişdir. Onun 1932-ci ildə “Sağlam yollarda” adlı ilk kitabı çap olunmuşdur. Mir Cəlal hər şeydən əvvəl, mahir hekayə ustası idi. İfadə tərzindəki rəngarənglik, mövzu müxtəlifliyi, mövzunun bədii həllindəki gözlənilməzliklər, təhkiyə şirinliyi, lakonizm, humanist pafos Mir Cəlalın hekayələrinin oxunaqlığını şərtləndirən əsas cəhətlərdir. Mir Cəlal bədii nəsrin roman janrında da qələmini məharətlə sınamışdır. Bir-birinin ardınca yazdığı-“Dirilən adam” (1934 - 1935), “Bir gəncin manifesti” (1939), “Açıq kitab” (1941), “Yaşıdlarım” (1946-1952), “Təzə şəhər” (1948 -1950), “Yolumuz hayanadır?” (1952-1957) əsərləri onu istedadlı roman ustası kimi tanıtmışdır (Mir Cəlal 2013a; Mir Cəlal 2013b; Mir Cəlal 2013c; Mir Cəlal 2013d; Mir Cəlal 2013e).

30 - cu illərdə ədəbiyyata "Mirzə", "Həkim Cinayətov", "Mərkəz adamı", "Kağızlar aləmi", "Təzə toyun nəzakət qaydaları", "Bostan oğrusu", "Kələntərovlar ailəsi", "Anket Anketov" tipli dəyərli hekayələr gətirmiş Mir Cəlal tənqid oxunu hədəfə qarşı cəsarətlə yönəldə bilmişdir. Özünəməxsus realist qələmlə savadsız mirzələri, başgirləyən müəllimləri, cinayətkar həkimləri,

"mərkəz adamı" Əntərzadələri, arvad alıb boşamaqla varlanan Balaxanları, mənəviyyatca pozulub "murdar cənazə"yə çevrilən Səadət xanımları, "nəzakət" pərdəsi altında çirkin simalarını gizlədənləri, bürokrat Anket Anketovları vəziyyət və şərait konkretliyində rüsvay edib, oxucuya tanıdmışdır.

1930-cu ildən hekayə yazmağa başlayan Mir Cəlal o dövrün "Şərq qadını", "Gənc işçi", "İnqilab və mədəniyyət", "Ədəbiyyat qəzeti" kimi nüfuzlu nəşrlərində "Doktor Cinayətov", "İfşa", "Mərkəz adamı", "Naxələf", "Bostan oğrusu", "Qüdrət nümayişi", "İstifadə", "Dəzgah qızı", "Heyrət"və digər hekayələrini dərc etdirmişdir. Ədibin "İnsanlıq fəlsəfəsi" (1961) kitabında verilmiş hekayələri böyük tərbiyəvi-əxlaqi əhəmiyyətə malikdir. "İnsanlıq fəlsəfəsi", "Subaylıq fəlsəfəsi", "Təzə toyun nəzakət qaydaları", "Vicdan mühakiməsi", "Vicdan əzabı", "Hesab dostları", "Təsadüf, ya zərurət", "Qocaların uşaq söhbəti" və başqa hekayələrində real həyat lövhələri, fəlsəfi xüsusiyyətləri verilmişdir. Bugünki həyatımızın və məişətimizin müxtəlif sahələrini özünəməxsus sənətkarlıqla təsvir edən Mir Cəlalın əsərlərində vətənpərvərlik, beynəlmiləlçilik motivləri mühüm rol oynamışdır. Yazıçı "Dirilən adam","Təzə şəhər", "Yolumuz hayanadır", "Bir gəncin manifesti", "Açıq kitab" və s. irihəcmli roman və povestlər yazmışdır. Mir Cəlalın bu dövr yaradıcılığı qüvvətlə səslənmiş, müxtəlif surətlərin, konkret hadisə və vəziyyətlərin təsviri ilə getdikcə dərinləşmişdir. Əsərlərində yaxın və uzaq ellərdə vuruşan hər bir azərbaycanlının obrazını canlı yaratmışdır. Vətənə, anaya əvəzolunmaz sevgi onun yaradıcılığında xüsusilə qabarıq şəkildə diqqət çəkəndir. Məsələn, "Vətən yaraları" hekayəsində ədib qeyd edir ki, bəşəriyyət hamısı analar qəlbi ilə yaşasaydı, dünya başdan-başa bir cənnət olardı (Mir Cəlal, 1943).

## 2. Mir Cəlal Paşayevin Yaradıcılığı

Mir Cəlalın elmi yaradıcılığında görkəmli ədəbiyyatşünas alim F.Hüseynovla birgə yazdığı "XX əsr Azərbaycan ədəbiyyatı" kitabı mühüm yer tutur (Mir Cəlal & Hüseynov, 2018). Mir Cəlalın yaradıcılığında Vətən sevgisi və xalqına bağlılıq kimi bəşəri duyğular dərin təsir qüvvəsinə malik real həyat həqiqətləri ilə təsvir edilmişdir. Doğma Vətənimizə yadellilərin müdaxiləsi, görkəmli ədibi daima hiddətləndirmiş, bir an belə rahat buraxmamışdır. Onu düşündürən Azərbaycanın müstəqilliyi və bütövlüyü olmuşdur. Bu nisgillə yaşayan ədib qeyrət qalasına bənzəyən təkrarolunmaz - "Bir gəncin manifesti" əsərini araya-ərsəyə gətirmişdir. Mir Cəlalın ən məşhur əsəri "Bir gəncin manifesti" romanıdır desək, yəqin ki, səhv etmərik. Milli sərvətimiz olan "Yusif-Züleyxa" xalçasını bazara satmağa aparan Sona obrazı əsl vətənpərvərlik nümunəsidir. Oğlu Mərdanı həbsdən qurtarmaq naminə iyirmi ildən artıq evində saxladığı "Yusif-Züleyxa"

xalçasını satmağa gətirən Sonanın ingilisi görəndə ürəyində bir ikrah hissi baş qaldırır. Tacir nə qədər çalışırsa, Sona böyük qürur hissi ilə:

*İtə ataram, yada satmaram!-deyir (Mir Cəlal, 2016). Bu qəti rədd cavabı Sona obrazında milli oyanış idi. Qeyrətli ananın qətiyyəti yüzlərlə vətəndaşın sevinci, Azərbaycan xalqının yadellilər üzərində qələbə təntənəsi idi. Müəllif bu əsəri ilə ədəbiyyatımızda milli birlik ideyası ilə səsləşən, təməli milli mentalitetimizdən yoğrulmuş möhtəşəm bir ana abidəsi ucaltmışdır. Ədəbi-estetik qayəsinə uyğun olaraq bu hekayələrində konkret lövhə də çəkir. Mir Cəlal yaradıcılığının tədqiqatçıları qeyd edirlər ki,müharibədən sonrakı illərdə Mir Cəlal həyatın müxtəlif sahələrinə müraciət etmişdir (Paşayeva, 2010; Məmmədli, 2015a; Məmmədli, 2015b; Salamoğlu, 2018; Mütəllimov, 2002). "Od içindən çıxanlar" (1945) silsilə hekayələrində gözləri ilə dəhşətlər görmüş insanlar haqqında söhbət açmış, onların fədakarlığını, arzu və məqsədlərini işıqlandırmışdır.

Digər bir sıra hekayələrində isə müharibə siyasətini pisləmək, xalqları zülmə, əsarətə, haqsızlığa qarşı, sülh və azadlıq uğrunda mübarizəyə çağırış ideyası əsas yer tutmuşdur. Bu əsərlər içərisində "Badam ağacları" xüsusi seçilir və nəsrimizin qiymətli nümunəsi kimi diqqəti cəlb edir. Real fakt, mənalı təfərrüat və canlı xarakter vasitəsilə, möhkəm süjetdə təbii əks olunmuş hadisə və vəziyyət əsasında müstəmləkə siyasətinin mahiyyəti açılırdı. Ədibin realist üslubunu, təsvir-təcəssüm üsulunu əlvanlaşdıran bir keyfiyyət burada da gözlənilmişdir. İnsan həyatı və təbiətini gözəl görmək Mir Cəlalın ictimai-estetik ideallarının özəyini təşkil edir, mənfıliyə qarşı mübarizə zərurətini də şərtləndirirdi. "Səyyah xanım", "Xarici naxoşluq", "Dil və əməl", "Heykəl uçulanda", "Rola girib", "O yana baxan", "Məhəbbət, yaxud qəlp pul", "Hesab dostları", "Neçə cür salam var", "Möhür və məhəbbət" hekayələrində, adlarından da göründüyü kimi, müəllifı daha çox həyatın neqativ halları, mənfılik və eybəcərliyin müxtəlif təzahürləri narahat etmişdir. Mir Cəlalın hekayələrindən birində kiçik məclis üzvləri arasında mühüm həyat probleminə dair başlanmış mübahisə və müzakirələri qocaman müəllimin dili ilə yekunlaşdırır, ürəkdə olanları cəsarətlə, açıq-aydın deyə bilməyi dünyada ən böyük xoşbəxtlik sayır, son dərəcə aktual səslənən düşündürücü, geniş mənalı nəticəyə gəlmişdir: "Məncə, bütün ölkələr, xalqlar, dövlətlər, başçılar öz vətəndaşlarına bu böyük və çox nadir neməti bəxş etsələr, dünyada zülm, kədər yox olar, ədalət bərpa olar, yer üzü işıqlanar, cənnətə dönər, insanlar "yüngülləşər", gözəlləşər, mələyə dönər!"

(Mir Cəlal, 2013a). Şifahi xalq ədəbiyyatı və klassik bədii irsin bir çox qabaqcıl, realist ənənələrinin Mir Cəlal yaradıcılığında yeni məzmun və formada yaşaması, inkişaf etməsi təsadüfi deyil. Çünki Mir Cəlal irsdən faydalanarkən məsələyə heç vaxt formal yanaşmamış, zahiri təsirə qapılmamış, həqiqi sənətə məxsus yol tutmuş, orijinal yazıçı kimi hərəkət etmişdir. Orijinallıq küll halında özünü həmin əsərlərin ideya-bədii keyfiyyətlərində, hadisələrə sağlam müəllif baxışında, obyektiv qiymət və təsvirlərdə göstərmişdir. Mir Cəlalın «Bir gəncin manifesti» əsərində Sona, Mərdan və Baharın acınacacaqlı taleyi çox böyük ustalıqla qələmə alınmışdır. Əsərdən görürük Mərdan hələ inqilabın əsil məqsəd və vəzifələrini dərk etmir, ayrı-ayrı dövlətliləri «plana salmaq», məhv etmək qənaətindədir.

Ana ingilisin saydığı «sarı və buz kimi soyuq qızılların bir-bir əlinə toxunduğunu» hiss edərkən adi bir fəhlənin sözü onu sanki yuxudan ayıldır: Verin, verin aparsın fahişələrə fərş eləsin. Qoy onu toxuyanlar quru yerdə qalsın. Ay bədbəxt, qafil müsəlman (Hüseynov, 2011). Anaya elə gəlir ki, ingilis öz evində, rahat və firavan zamanında adi xalçaya deyil, Sonanın barmaqlarına baxır. Təbii olaraq Sonanın gözü qarşısında əvvəlcə öz oğlu Mərdanın məzəmmətlə dolu baxışı gəlib durur. Daha sonra xalça onun nəzərində bir ev əşyasından daha çox, vətənin ən gözəl nemətlərinin məcmuu kimi görünür. Burada lövhə də, daxili monoloq da, xəyal da, təbiətdə - hər şey ananın vətənpərvərlik hissini aşkara çıxarmağa kömək edir. Mərdan günahsız döyülmüş və təhqir olunmuş kiçik qardaşının böyük günahını, hər şeydən əvvəl, kasıb olmasında görürdü: Ana, Baharın böyük taxsırı var. Onun taxsırı kasıblıqdır. Bu zəmanədə kasıblıqdan böyük günah nədir? Yıxıl öl, kasıb olma! deyir (Məmməd Arif, 1967).

Bahar ömrü başdan-başa ehtiyac və iztirab içərisində keçən nakam uşaqların bir timsalıdı. Bir parça çörək onu çöllərə salmış, ana qayğısı və uşaqlıq fərəhindən məhrum etmişdir. Təsadüfi deyil ki, Bahar surəti təsvir edilərkən M. Ə. Sabirin

«Ey dərbədər gəzib ürəyi qan olan cocuq,

Başsız qalıb ayaqlara iftan olan cocuq» (M. Ə. Sabir) - misraları yada düşmüş və vəziyyətlə həmahəng işlədilmiş, uğursuz taleyinin sona çatdığına dair fəslə isə «Göz yaşı romanı» adı verilmişdir. Əsərdə günahsız Baharları ölümə məhkum edənlərə qarşı nifrət və qəzəb qüvvətlidir. Şaxta vurub dondurmuş, qanlı dövranın qanunları, amansız insanların əli ilə öldürülmüş balaca Bahar xalqın azadlığa çıxdığı güman edilən gündə bir daha hörmətlə xatırlanır.

Mir Cəlal «Yollar» (1941) hekayəsində ana torpağı düşmən tapdağından qorumağa gedən Vətən övladlarından, bu övladların qabaqcıl bir nümayəndəsi kimi Ədhəmdən söz açmış, onun öz

borcunu ödəmək əzmini, yaşadığı hisslərin böyüklüyünü qələmə almış; konkret bir fərdin vətənpərvərlik duyğularını, hərəkət və sözlərini adamlarımızın ümumi əhvali-ruhiyyəsi, hərəkət və sözləri ilə birləşdirib vəhdət halına salmışdır.

«Anaların üsyanı» (1941) hekayəsində hadisələr daha da dərinləşmişdir. Hekayə ona görə güclü intibah oyadmışdır ki, burada həm həyat hadisəsi, həm də bədii təcəssüm çox təsirli və real olmuşdır. Sinəsinə övlad dağı çəkilmiş Mariyanın daxili həyacanları, yrək çırpıntıları, qisas duyğuları mənalı boyalarla ifadə olunmuş, hadisənin konkret təsvirindən geniş bədii ümumiləşdirməyə keçilmişdir (Mir Cəlal, 1943).

Mir Cəlalın «Qan qardaşı» (1941) hekayəsi, hər şeydən əvvəl, ona görə diqqətəlayiqdri ki, mübarizə şəraitini, cəbhə həyatının mürəkkəbliyini bir neçə səciyyəvi cizgi ilə düzgün, obrazlı əks etdirmişdir. Toplar nərildəyir, pulemyotlar tələsir, təkər səsləri dəmirçi bazarını xatırladır. Göy-yer bir-birinə qarışmışdır. Üfüqləri kəsif və bulanlıq bir hava örtmüşdür. Adam çox eşidir, az görür. Güman edirsən ki, sənin sağında, solunda, arxanda, qarşında, başın üstündə və ayağın altında, hətta qəlbində, beynində alovlanan çarpışmaları, bütün bu gurultu və dəhşətləri müəyyən bir pərdə örtmüşdür (Mir Cəlal, 1941).

Mir Cəlalın yaratdığı müxtəlif əsərlərdəki romantik qəhrəman Vətənin müqəddəsliyini uca tutan, ədalət və şəxsi azadlığı uğrunda mübariz, bərabərliyə və sosial tarazlığa üstünlük verən, Vətən yolunda, xalq yolunda canından keçməyə hazır olan fəal ziyalı, vətəndaşdır, öz məsləkində, yolunda möhkəm və mətanətlidir**.**

Mir Cəlal eyni zamanda «Boz adam» (1941), «Axşam səfəri» (1942), «Snayper» (1942) və başqa hekayələrinin mövzusunu da cəbhə həyatından, müharibə səhnələrindən götürmüş və səciyyəsi fəaliyyət prosesində açılan döyüşçü surəti yaratmışdır. «Vətən yaraları» (1942) hekayəsində əsgərin vətənpərvərlik duyğularını dərin səmimiyyət və bədii hərarətlə canlandıra bilmişdir.

Qeyd etməliyik ki, Mir Cəlalın Böyük Vətən müharibəsi dövründə yazdığı bir sıra hekayələrini Məmməd Arif qəzəbli hekayələr adlandırmış, qəzəb hissini onların əsas ruhunu, pafosunu təşkil edən yeni xüsusiyyət kimi yüksək qiymətləndirmişdir (İsmayılov, 2010).

Xarakterlər ustası sayılan Mir Cəlalın bu özünəməxsus yaradıcı keyfiyyəti təkcə onun hekayələrində qabarıq nəzərə çarpmır. Kürəyində istismarçıların qamçı izləri qaralan Salman dayı, 40 illik tərli və buxarlı əməyin qalib əsgəri olan Əhliman və Hüseyn kişi ("Sağlam yollarda”), gözlərinə qanlı keçmişin dəhşətləri köçmüş Həsən əmi ("Zavodun tərcümeyi-halı”) kimi qocalar,

avam kəndli Mehbalı kişi ("Oğul”), qara çadranın zülmətindən qurtularaq özünə yeni həyat yaradan Sara ("Sara”) kimi obrazlar ədibin ilk oçerk və hekayələrinin qəhrəmanlarıdır. Yaradıcılığının birinci dövründə qələmə aldığı "Həkim Cinayətov”, "Mirzə Şəfi”, "Mərifət dərsi”, "Möhlətovun tərcümeyi-halı”, "Kağızlar aləmində”, "Dostumun qonaqlığı”, "Mərkəz adamı” və digər hekayələrində müəllif yeni həyatla ayaqlaşa bilməyən bir çox ziyalıları, cəmiyyətin tərəqqisinə mane olan köhnə əxlaqın qalıqlarını da tənqid atəşinə tutmuşdur.

Ümumilikdə, 1930-40-cı illərdə işıq üzü görmüş "Bolşevik ədəbiyyatı kadrları”, "Quruluş qəhrəmanlarımızın bədii ifadəsi uğrunda”, "Gənc oxucuları təşkil edəlim”, "Azad qadın ədəbiyyatda”, "Böyük problemlər romanı”, "Bədii dilimiz haqqında” və digər məqalələrində Mir Cəlalın həyat hadisələrinə müdaxiləsi, dövrünün, zəmanəsinin nəbzini tuta bilməsi, milli-mənəvi dəyərləri düzgün qiymətləndirməsi, gənc nəslə vətənpərvərlik ruhu aşılaması özünü aydın büruzə verir. Dövrün tələblərinə cavab verə bilən belə məqalələr Mir Cəlalın ədəbi, pedaqoji və ictimai hadisələrə yanaşma tərzinin düzgünlüyünü göstərir. Bu əsərlər ötən əsrin 30-40-cı illərində tənqid və ədəbiyyatşünaslığın inkişaf etməsində, buraxılan səhvlərdən təmizlənməsində böyük rol oynamış və indi də aktuallığını itirməyib.

Yazıçının "Dirilən adam” romanı cəmiyyətdə böyük marağa, ictimai müzakirələrə səbəb olub. Bu əsərdə Azərbaycan xalqının mübarizə tarixinin yeni mərhələsi canlandırılıb. Romanda təsvir edilən şərait dövr üçün səciyyəvi ictimai hadisələrlə bağlı olduğundan, yazıçı eyni zamanda ötən əsrin əvvəllərində Azərbaycan kəndində və mərkəzdən uzaq şəhərlərdə hökm sürən ümumi vəziyyəti, ölkədəki siyasi özbaşınalığı, hərc-mərcliyi bədii boyalarla əks etdirib.

Xüsusilə “Bir gəncin manifesti” əsərində Sona bir ana obrazı olaraq, Azərbaycan qadınlarının, analarının ən yaxşı sifətlərini özündə cəmləşdirərək, həm də ana Vətəni – Azərbaycanı xarakterizə edir. Bütün qarşılaşmalarda Sonanın ingilisə qarşı açıq və gizli şəkildə üzə çıxan nifrəti Azərbaycan xalqının müstəmləkəçiliyə hüdudsuz müqavimətini əks etdirir. "Gecənin hökmü‖ pritçasındakı ceyran, "Sonanın cavabı‖ndakı "Yusif-Züleyxa‖ xalçası Vətənin maddi sərvətlərinin simvolu kimi metaforalaşır. Mir Cəlalın təsvir etdiyi ingilis (vağzal ingilisi) Azərbaycanda hökm sahibidir. Yerli hakimiyyət orqanlarının nümayəndələri birmənalı şəkildə onunla hesablaşmaq məcburiyyətindədirlər. Tarixin reallıqlarına istinad etsək, deyə bilərik ki, o, bu hökmü və gücü başda Tomson olmaqla Bakıdakı ingilis hərbi komandanlığından alır. Bu güc və hökm Azərbaycan xalqını mümkün olan yerə qədər soyub talamağa hesablanıb. Romanda ingilisin ceyranı və "Yusif-Züleyxa‖ xalçasını qarşısıalınmaz ehtirasla və zorla ələ keçirmək istəyi

tarixən onların Azərbaycanı soyub-talaması həqiqətləri ilə yüzə yüz üst-üstə düşür. Mir Cəlal ingilislərin Azərbaycanda törətdikləri rəzalətləri, onların nəhayətsiz soyğunçuluq əməllərini yalnız metaforik planda əks etdirmir, bu siyasətə və hərəkətlərə qarşı özünün və milli varlığı simvollaşdıran obrazların aktiv, cəsarətli və şüurlu münasibətini də ifadə edir. Mir Cəlal tarixin həqiqətlərinə uyğun olaraq sübut edir ki, Azərbaycan xalqı bu güc və hökm qarşısında geri çəkilmir. Romanda ingilis müstəmləkəçiliyinin iç üzü açılır və xalqın bu yadellilərə göstərdiyi müqavimətin detalları, bəzən isə təfsilatları üzərində dayanılır. Birmənalı şəkildə demək olar ki, Sona obrazı romana ingilis müstəmləkəçiliyinə qarşı Azərbaycan xalqının müqavimət əzmini və ruhunu simvollaşdırır.

Mir Cəlalın qələmindən çıxan"Açıq kitab” əsərinin mövzusu keçən əsrin 30-cu illərində cəmiyyətdə gedən mürəkkəb proseslərdən, dövr üçün səciyyəvi hadisələrdən götürülmüşdür. Mənbələrin araşdırılması mövzunun əhatəli şərhinə, yazıçının bu mövzuya müraciət etməsinin səbəblərini aydınlaşdırmağa imkan verir. Cəmiyyətdə saflığın, düzlüyün, həqiqətin bərqərar olmasının zəruriliyi romanda bədi cəhatdən əsaslandırılmışdır.

Ölkədə gedən proseslər - müasir dünyagörüşlü, yeniliklərə can atan gənclərlə yanaşı, siyasi şüarlar əzbərləyib ictimai fəal cildinə girən, şər və böhtanla məşğul olan, evlər yıxan insanların getdikcə artan bəd əməlləri sənətkarı narahat etməyə bilməzdi. Ədib həmin dövrdə sovet cəmiyyətində gedən ictimai-siyasi prosesləri diqqətlə izləmiş, həyat həqiqətlərinə sadiq qalaraq müşahidə etdiyi müsbət cəhətləri alqışlamaqla yanaşı, mənfi meylləri satirik dillə ifşa və tənqid etmişdir. Təsadüfi deyil ki, yazıçının dövrün mənfiliklərini cəsarətlə ifşa etməsinə, problemlərin mahiyyətini açıb göstərməsinə münasibət birmənalı olmamışdır.

Yazıçı romanda müxtəlif xarakterə, dünyagörüşünə, həyat mövqeyinə malik yaddaqalan obrazlar silsiləsi yaratmışdır. Əsərdə müasir gəncliyi təmsil edən *Vahid, Rübabə* və onların ələbə dostlarının hər biri öz daxili aləmi, fərdi psixoloji cizgiləri, fəaliyyəti ilə diqqəti cəlb edir. Saf mənəviyyatlı, istedadlı gənc olan Vahid qurub-yaratmaq arzusu ilə yaşayan, ali təhsil alan gəncliyin nümayəndəsidir. O, yeni, xoşbəxt həyatın qurucusu kimi gəldiyevçilərin hədəfinə çevrilir.

Əsərdə Vahidin, Rübabənin Gəldiyev və Verdiyev kimiləri ilə apardığı prinsipial mübarizə şəxsi deyil, ictimai mahiyyət daşıyır. Vahidin mənəvi dünyasının, fikir və hisslərinin təsvirinə əsərdə geniş yer verilir, oxucunun gözləri önündə ləyaqətli, sadə, təvazökar bir gəncin obrazı canlanır. Vahid inkişafa, tərəqqiyə mane olan insanlarla mübarizədə şəxsi intiqam, qisas hissindən uzaqdır. O, başqalarını əzməklə mənsəbə çatmaq, güzəran yaratmaq arzusuna düşənlərə öz yaradıcı

fəaliyyəti, cəmiyyətə fayda verən əməlləri, mübarizədə əzmkarlığı ilə zərbə vurur. Romanda Rübabə, Muxtar kimi gənclər Vahidin əməl dostlarıdır. Deməliyik dövrün aktual problemlərinin qaldırılması baxımından "Açıq kitab"(1941) romanı əd əbi tənqiddə "həqiqətin üzünə dik baxan əsər" kimi yüksək qiymətləndirilirdi. İctimai mühitdə Gəldiyevlərin var olması nəhəng yazıçı tərəfindən həm də ən qorxulu hal olan Q ədir, Kərim Gəldiyev kimi "ideorobotları",dayaz adamları və ailələri mövcud cəmiyyətin özü, on un tərbiyə və təlim dəyərləri, ideoloji tələbləri yaradırdı**.** Yazıçının yaradıcılıq psixologiyasını dərindən bilən akademik Nərgiz Paşayeva yazır: “Təxminən əlli illik bədii yaradıcılığında Mir Cəlal öz oxucuları ilə həmişə səmimi və obyektiv söhbət aparmışdır: həyat materialını hər cür “kosmetik ədəbiyyatlardan” uzaq, bütün həqiqətləri ilə, gözəllik və faciələri ilə, gülməli və ağlamalı tərəfləri ilə canlandırmağı bacarmışdır”. Akademik Məmməd Arif “Mir Cəlal mahir hekayə ustasıdır, onun hekayələri əksəriyyətlə yığcam və ibrətlidir” deyərək, öz qələm dostunun yaradıcılıq imkanlarını dürüst müəyyən etmiş və onun xidmətlərini yüksək qiymətləndirmişdir.

Həm də Mir Cəlalın “Anket Anketov”, “Söyüd kölgəsi”, “Təzə toyun nəzakət qaydaları”, “Kəmtərovlar ailəsi”, “Analar yola çıxdılar”, “Qan qardaşı”, “İclas qurusu”, “Vətən yaraları”, “Ərəb qızı”, “Elçilər qayıtdı”, “Xarici naxoşluq”, “Subaylıq fəlsəfəsi” və digər hekayələri bu gün də oxucularımız tərəfindən sevilə - sevilə oxunur. Ədibin yaradıcılığını tətqiq etdikcə öyrənirikk ki, Mir Cəlal hekayə janrına bütün yaradıcılığı boyu müraciət etmişdir. Yazıçının hekayələri fonunda ümumən yazıçının yaradıcılıq təkamülünü izləmək mümkün olduğu kimi, 1930-1970-ci illər Azərbaycan hekayəsinin estetik axtarışlarını və janrın poetikasındakı dinamikanı izləmək mümkündür.

Mir Cəlalın yaradıcılığı haqqında çox yazılmışdır. Aparılan tədqiqatlarda böyük sənətkarın yaradıcılığının mövzu, ideya və sənətkarlıq xüsusiyyətləri haqqında həmişə öz müasirliyini saxlayan dəyərli fikirlər söylənmişdir. Ədibin bədii yaradıcılığı polifonik məzmuna və dərin məna potensiallarına malikdir. Təsadüfi deyil ki, müstəqillik dövrünün tədqiqatçıları da onun ədəbi-bədii irsinə çox həvəslə nüfuz edir. Nəticədə yazıçının yaradıcılığının yeni-yeni sirlərini elmi təhlil müstəvisinə gətirirlər.

Azərbaycan ədəbiyyatında hekayə yazmayan yazıçı yoxdur. Süleyman Rəhimov, Əli Vəliyev, Mehdi Hüseyn, İsmayıl Şıxlı, İlyas Əfəndiyev, Anar, Elçin ədəbiyyatımıza qiymətli hekayələr bəxş ediblər. Lakin, fikrimizcə, ədəbiyyatımızda hekayənin 4 ustası var: Mirzə Cəlil, Ə. Haqverdiyev, Y. V. Çəmənzəminli və Mir Cəlal! Onların hekayələri klassik hekayənin qızıl

fondunu təşkil edir. Mir Cəlal ədəbiyyatımızı XX əsr oxucusunun milli bədii sərvəti olan romanlarla zənginləşdirib. «Dirilən adam» (1934), «Bir gəncin manifesti» (1939), «Yolumuz hayanadır» (1952), «Açıq kitab» (1952), «Təzə şəhər» (1950), «Yaşıdlarım» (1952)... Yazılma tarixlərindən də göründüyü kimi, Mir Cəlal 1950-ci ilə qədər iki roman yazmışdı. M. F. Axundzadə kimi, onun da romanlarının tarixi 50-55-ci illəri əhatə edir. Qırxıncı illərdən elmi yaradıcılıqla məşğul olmuş, 1940-cı ildə «Məhəmməd Füzulinin poetik xüsusiyyətləri» mövzusunda namizədlik, yeddi il sonra, 1947- ci ildə «Azərbaycanda ədəbi məktəblər» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Ümumiyyətlə, Mir Cəlalın bədii əsərləri Azərbaycanı doğma Vətəni və xalqı mənasında tam olaraq bütün təbiiliyi ilə təqdim etməyə bələdçilik edir. Oxucular Mir Cəlalın əsərlərindən onun ölkəsinin və xalqının özünəməxsusluqları haqqında tam, bütöv, real və geniş təsəvvürlər əldə edirlər. Əslində böyük ədəbiyyatın əsas vəzifəsi və real missiyası da bundan ibarətdir. Azərbaycan ədəbiyyatı tarixində çoxcəhətli yaradıcılıq fəaliyyətinə malik görkəmli sənətkarlardan biri olan görkəmli ədib Mir Cəlal təmsil etdiyi istiqamətlərin hamısında yüksək professionallıq istedadı nümayiş etdirmişdir.

Biz Mir Cəlal haqqında fikirləşərkən ən azı üç amili göz önünə gətirməli oluruq: yazıçı, ədəbiyyatşünas alim və müəllimlik: Hərçənd burada Mir Cəlalın publisistika sahəsindəki çoxillik və səmərəli fəaliyyətini də əlavə etmək mümkündür. Çünki Mir Cəlalın publisistikası onun yaradıcılığında geniş və əhəmiyyətli yer tutur. Ədib 1932-ci ildə çap olunmuş «Sağlam yollarda» adlı ilk oçerklər kitabı ilə ədəbi aləmdə tanınmışdır. Sonralar da Mir Cəlal bütün yaradıcılığı boyu həmişə publisistikanın müxtəlif janrlarında dəyərli nümunələr yaratmışdır. Və onun publisist əsərləri yüksək bədii xüsusiyyətlərə malikdir. Belə publisistik əsərləri bir çox hallarda bədii nümunələrdən seçmək olmur. Mir Cəlalın ən yaxşı publisist əsərləri yazıçının hekayələrinə çox yaxındır.

Bütövlükdə Mir Cəlal Azərbaycan publisistikasına yüksək bədiilik gətirən sənətkarlardandır. Təəssüf ki, ədibin publisistikası toplanılıb tam halda nəşr olunmamışdır. Unutmaq olmaz ki, publisistika Mir Cəlalın bədii yaradıcılığının baş məşqi funksiyasını yerinə yetirmişdir. Bundan başqa, yaxşı mənada Mir Cəlalın bədii yaradıcılığında publisistika elementləri iştirak edir və onun əsərlərində aktuallığın, müasirliyin, həyatiliyin daha da qüvvətlənməsinə təkan verir.

Mir Cəlal hekayə janrının klassik nümunələrini yaratdığı kimi, roman janrının da poetikasına ciddi yenilik gətirmiş ustad yazıçı idi. Ədibin qələmə aldığı “Dirilən adam”, “Bir gəncin manifesti”,

“Yolumuz hayanadır”, “Açıq kitab”, “Yaşıdlarımız”, “Təzə şəhər” kimi əsərləri roman janrının tarixi təkamülünü əks etdirirdi. Bizə aydın olur ki, bu əsərlərin hər biri ədəbi prosesə bir canlılıq gətirmişdir. Nəticədə, roman janrı ətrafında ən çox mübahisələrə, müzakirələrə səbəb olan əsərlər sırasında Mir Cəlalın yaradıcılığı da xüsusi yer tutur və yazıçının romanlarında insan tarixi-inqilabi prosesin axarında təsvir olunur.Çünki onun qəhrəmanları yeni ideya-bədii idealın daşıyıcılarıdır.Bu əsərlərdə fərdi talelər də yazıçını daha çox düşündürürdü. Həm də ədib yazdığı romanları ilə ədəbiyyatımıza 1930-1960-cı illər gerçəkliyinin səciyyəvi cəhətlərini və tipik xarakterlərini gətirdi desək,bu əsl reallıqdir.

Fikrin roman tutumu baxımından yazdığı altı romanın hamısı eyni səviyyədə, eyni poetikada, eyni sənətkarlıq mövqeyində dayanmasa da, Azərbaycan nəsrinin inkişafında onların hər birinin özünəməxsus yeri var... Auditoriyada mühazirə deyə-deyə gəzirdi, arada dayanırdı, əlini hansımızınsa çiynimizə qoyub fikrini davam etdirirdi. Onda Mir Cəlal müəllim bir az da doğmalaşardı. - Roman çətin janrdır – deyirdi, - ona xırda mövzular yaramır. Roman üçün sənətkara xeyli təcrübə, hərtərəfli kamillik lazımdır. Sonra bizim tələbə olduğumuz o illərdə təzə yazılmış romanların qiymətinə keçirdi, cavan yazıçıların yaradıcılığından həvəslə söhbət açırdı (Məmmədli, 2023).

Böyük ədib və ictimai xadim Mir Cəlal (1908-1978) çoxcəhətli yaradıcılıq fəaliyyətinə malikdir. Bədii yaradıcılıq, publisistika və elmi-pedoqoji fəaliyyəti onun çoxcəhətli yaradıcılığının istiqamətləridir. Görkəmli ədib bu yaradıcılıq sahələrinin hər biri ilə bütün ömrü boyu məşğul olmuş və bütün istiqamətlər ədəbi-elmi mühitdə dərin izlər buraxan böyük xidmət göstərmişdir. Bundan başqa, onun fəaliyyətində məşğul olduğu yaradıcılıq sahələrinin biri digərini tamamlamış və daha da zənginləşdirmişdir. Mir Cəlalın hekayəsi ilə oçerkləri, romanları ilə monoqrafiyaları arasında möhkəm daxili rabitə və qarşılıqlı əlaqənin olması həmin əsərlərin bədii və ya elmi səviyyəsinin daha da qüvvətləndirilməsinə, mahiyyətinin dərinliyinə, hədəflərinin yaxınlaşmasına imkan yaratmışdır. Böyük ədib müraciət etdiyi elmi və bədii yaradıcılıq sahələrinin hər birində yüksək professionallığı ilə örnək ola bilmişdir (Məmmədli, 2023).

“Mir Cəlalın poetikası” kitabının II cildi də monoqrafiya şəklində çap olunub. Burada ədibin hekayə janrında 30-cu illərdən başlayaraq, baş verən hadisələr, insanların xarakterik xüsusiyyətləri, nikbin baxışları öz təsvirini tapıb. Hekayələrin geniş təhlili Vətən müharibəsi dövrünü - 1941-1945-ci illəri təsvir edir. Ədibin “İnsanlıq fəlsəfəsi”, “Subaylıq fəlsəfəsi”, “Vicdanın mühakiməsi”,

“Təsadüf, ya zərurət”, “Qocaların uşaq söhbəti” və s. hekayələrində real həyat lövhələri, fəlsəfi düşüncələr öz əksini tapmışdır (Eminli, 2020).

**Nəticə**

Mir Cəlal hekayəçilikdə nümayiş etdirdiyi yüksək sənətkarlığı romanlarında daha da inkişaf etdirmişdir. «Dirilən adam» romanını yazmaqla (1934) Mir Cəlal Azərbaycan ədəbiyyatına mükəmməl tale romanı yaradan yazıçı kimi daxil olmuşdur. Əsərdəki Qədir obrazı sərt ictimai mühitin girdabından çıxıb həyatda özünü təsdiq etmək üçün mübarizə aparır. O, cəmiyyətdə dayaq tapa bilməyən insanların keşməkeşli taleyini əks etdirir. Yaşıdlarım (1946) avtobioqrafik romanında milli ziyalılığın közərən işıqlarını qələmə almışdır. Qeyd etməliyik ki, Mir Cəlalm «Bir gəncin manifesti» romanı (1938) isə ədəbi tənqiddə haqlı olaraq, Azərbaycan ədəbiyyatının yeni dövrünün manifesti kimi təqdim edilmişdir. Yolumuz hayanadır (1957) romanında isə tarixiliklə müasirlik bir yerdə, üzvi əlaqədə qələmə alınmışdır. Əsərdə Azərbaycan satirik şeirinin banisi olan Mirzə Ələkbər Sabirin keşməkeşli həyatı ön mövqeyə çəkilmişdir. XX əsrin 20-30-cu illərində ədəbi aləmdə əvvəlcə şeir, sonra isə oçerk və hekayələri ilə görünən Mir Cəlal az sonra istedadlı və orijinal yaradıcılıq üslubu olan yazıçı kimi tanınıb. Səməd Vurğun, Süleyman Rəhimov, Süleyman Rüstəm, Mehdi Hüseyn kimi tanınmış söz ustadları ilə bir dövrdə yaşayan Mir Cəlal öz yazı üslubu ilə həmkarlarından fərqlənərək Azərbaycan ədəbiyyatına yeni nəfəs gətirib. XX əsr Azərbaycan ədəbiyyatının bir sıra nailiyyətləri bilavasitə Mir Cəlalın adı ilə bağlıdır. Əlli illik yaradıcılıq fəaliyyəti dövründə o, görkəmli nasir kimi Azərbaycan ədəbiyyatı tarixində öz layiqli və şərəfli yerini tutub. Əminliklə deyə bilərik ki, təkcə “Bir gəncin manifesti” əsərinə görə Mir Cəlal klassik sənətkarlar sırasında dayanmaq haqqını qazanıb.

**Ədəbiyyat**

Mir Cəlal & Hüseynov, F. (2018). *XX əsr Azərbaycan ədəbiyyatı*. Elm və təhsil.

Mir Cəlal. (2013a). *Seçilmiş əsərləri.* (C. I). *Hekayələr.* Adiloğlu.

Mir Cəlal. (2013b). *Seçilmiş əsərləri.* (C.II). *Hekayələr.* Adiloğlu.

Mir Cəlal. (2013c). Seçilmiş əsərləri. (C.III). *Hekayələr.*Adiloğlu.

Mir Cəlal. (2013d). *Seçilmiş əsərləri.* (C. IV). *Hekayələr.* Adiloğlu.

Mir Cəlal (2013 e) . *Seçilmiş əsərləri.* (C. V). *Felyetonlar, şeirlər, oçerklər, tərcümələr, xatirələr.* Adiloğlu.

Mir Cəlal. (1943). *Vətən yaraları.* Azərnəşr.

Mir Cəlal. (2016). *Bir gəncin manifesti.* V nəşr. Kitab Klubu.

Hüseynov, Ə. (2011). *Mir Cəlalın bədii nəsri.* Elm və təhsil.

Mütəllimov, T. (2002). *Ustad yadigarı (ön söz). Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər.* Ziya-Nurlan.

Məmməd Arif. (1967). *Seçilmiş əsərləri.* (C. 1). Azərbaycan SSR EA nəşriyyatı.

İsmayılov, Y. (2010). *Mir Cəlalın yaradıcılığı.* Elm.

Məmmədli, C. (2023). Mir Cəlalın 115-illik yubileyinə həsr olunmuş Respublika Elmi Konfransının Materialları. (s. 22-32). Bakı.

Məmmədli, C. (2015a). *Böyük alim, böyük müəllim.* Mir Cəlal, (C. II). Nurlar.

Məmmədli, C. (2015b). Bədii sözün «Ulduz» rəngi. *Ulduz jurnalı,* Təhsil nəşr, 3-7.

Paşayeva, N. (2010). Yazıçı və zaman: (Mir Cəlal-100). *Qarapapaqlar,* 2, 16-20.

Salamoğlu (Cavadov), T. (2018). Mir Cəlal nəsri və müasirlik. Orxan NPM.

Eminli, A. (2020). *Mir Cəlalın poetikası.* (C.2). Bakı.